08 (1314) 29 fevral - 6 mart 2024-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet  Qiyməti razılaşma yolu ilə  Qəzet 1999-cu ildən çıxır

## "BU GÜN XOCALIDA OLMAĞIMIZ TARİXİ ƏDALƏTİN TAM BƏRPASI DEMƏKDİR"

"Bu gün biz buradayıq (Xocalı – red.), burada olmağımız tarixi ədalətin tam bərpası deməkdir. Bu gün Xocalı qurbanlarının ruhu şaddır". Bu fikirləri Prezident İlham Əliyev fevralın 26-da Xocalı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə ifadə edib.

Dövlətimizin başçısı, həmçinin diqqətə çatdırıb: **"Azərbaycan Ordusu həm peşəkardır, həm vətənpərvərdir, həm bacarıqlıdır, həm də eyni zamanda, əməliyyatları elə aparır ki, qısa müddət ərzində həlli mümkün olmayan kimi sayılan əməliyyatlar aparılmışdır, onlardan da biri, bəlkə də birincisi Şuşa əməliyyatıdır".**






## "İNANIRDIM Kİ, XOCALIYA QAYIDACAĞIQ VƏ QURBANLARIN XATİRƏSİNİ ƏBƏDİLƏŞDİRMƏK ÜÇÜN BURADA MEMORİAL KOMPLEKS YARADILACAQ"

"Xocalı qurbanlarının xatirəsini əbədiləşdirmək üçün memorial kompleksin layihəsi çoxdan hazır idi, yer də seçilmişdi. Ancaq memorial kompleksin tikintisi ilə bağlı hər il mən müəyyən tərəddüdlər keçirərək o hadisəni, o layihəni təxirə salırdım". Bu sözləri Prezident İlham Əliyev fevralın 26-da Xocalı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə deyib. Dövlətimizin başçısı bildirib: **"Ona görə ki, sizin kimi, mən də inanırdım və bilirdim, biz buraya qayıdacağıq, Xocalıya qayıdacağıq və günahsız qurbanların xatirəsini əbədiləşdirmək üçün burada Memorial Kompleks yaradılacaq".**

## "ƏFSUSLAR OLSUN Kİ, "XOCALIYA ƏDALƏT!" ÇAĞIRIŞIMIZ CAVABSIZ QALDI"

Bunu Prezident İlham Əliyev fevralın 26-da Xocalı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə bildirib. Səylərimizin nəticəsi olaraq 18 ölkənin bu qanlı faciəni soyqırımı kimi tanıdığını xatırladan dövlətimizin başçısı qeyd edib: **"Ancaq bu ölkələrin arasında böyük dövlətlərin adları yoxdur. Beynəlxalq təşkilatlar, onların bir çoxu bu faciəyə biganə qalmışdır".**

## "XOCALI SOYQIRIMINI İNKAR ETMƏK ƏDALƏTSİZLİK VƏ VİCDANSIZLIQDIR"

"Biz bu həqiqəti (Xocalı soyqırımı ilə bağlı – red.) dünya ictimaiyyətinə çatdırmaq üçün bir çox səylər göstərmişdik və haqlı olaraq dünyadan ədalət tələb edirdik". Bu sözləri Prezident İlham Əliyev fevralın 26-da Xocalı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə söyləyib. **"Xocalı soyqırımı dünyanın gözü qarşısında baş vermiş qanlı cinayətdir. Xocalı soyqırımını inkar etmək ədalətsizlik və vicdansızlıqdır"**, - deyən dövlətimizin başçısı Ermənistan dövlətinin, o vaxt və bu gün onun arxasında duran eyni qüvvələrin bu hadisənin ört-basdır edilməsi üçün əllərindən gələni etdiklərini diqqətə çatdırıb.

# "GƏLƏN İL AĞDAMA İLK KÖÇ BAŞLANACAQ"

"Artıq beş yaşayış məntəqəsinə keçmiş köçkünlər qayıtmışlar. Bu il o yaşayış məntəqələrinin sayı 20-yə çatacaq". Bu barədə Prezident İlham Əliyev fevralın 26-da Xocalı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə bildirib.

Bu il həm Xocalıda, həm də Xankəndidə həyatın bərpa olunacağını qeyd edən dövlətimizin başçısı deyib: **"Malıbəyli, Kərkicahan, Şuşanın Turşsu kəndləri də bərpa ediləcək. Ağdam şəhəri bərpa olunur və gələn il Ağdama da ilk köç başlanacaq. Yəni, quruculuq işləri geniş vüsət alır".**

## "GÜNAHSIZ XOCALI QURBANLARININ QİSASINI DÖYÜŞ MEYDANINDA ALDIQ"

"Biz tarixi ədaləti bərpa etmişik. Biz günahsız Xocalı qurbanlarının qisasını döyüş meydanında aldıq, qoymadıq ki, onların qanı yerdə qalsın".

Bu barədə Prezident İlham Əliyev fevralın 26-da Xocalı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə bildirib. Buna 30 il vaxt lazım olduğunu diqqətə çatdıran dövlətimizin başçısı qeyd edib: **"Ancaq bu 30 il ərzində görülmüş işlər, apardığımız məqsədyönlü siyasət bu günü burada yaşamaq üçün bizə imkan yaradır".**

## ALMAN İQTİSADİYYATININ ŞƏRQ KOMİTƏSİNİN NÜMAYƏNDƏ HEYƏTİ BAKIDADIR



Fevralın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Alman İqtisadiyyatının Şərq Komitəsinin sədri Mixael Harmsın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Almaniya Federativ Respublikasının aparıcı şirkətlərinin rəhbərlərindən ibarət nümayəndə heyətinə Almaniya-Azərbaycan Xarici Ticarət Palatasının icraçı direktoru Tobias Baumann, "Falk" konsaltinq şirkətinin icraçı direktoru Tomas Falk, "Uniper Global Commodities SE" şirkətinin birinci vitse-prezidenti Uve Fip, "Rhenus Group" beynəlxalq nəqliyyat şirkətinin layihələr üzrə idarə heyətinin direktoru Heinrix Kerstgens, "VNG" Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Ulf Heitmüller, "Rohde & Schwarz" şirkətinin regional satış direktoru Viktoriya Gerasimova və "HHLA International" şirkətinin icraçı direktoru Filip Sveens daxildir.

## "ERMƏNİSTAN BİLMƏLİDİR Kİ, YEGANƏ YOL AZƏRBAYCANIN BÜTÜN ŞƏRTLƏRİNİ QƏBUL ETMƏKDİR"

"Ermənistan və onun havadarları hesab edirdilər ki, onları heç kim cəzalandırmayacaq. Onlar səhv etmişdilər, bu gün də səhv edirlər". Bu sözləri Prezident İlham Əliyev fevralın 26-da Xocalı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə söyləyib.

***"Yeni yiyə axtarışında olan, onun-bunun qucağına sığınan Ermənistan bilməlidir ki, yeganə yol Azərbaycanın bütün şərtlərini qəbul etmək və Azərbaycana qarşı ərazi iddialarından əl çəkməkdir"***, - deyə dövlətimizin başçısı vurğulayıb.

## "BİZ BÖYÜK XALQIN NÜMAYƏNDƏLƏRİYİK"



"Həm 2020-ci ildə, həm də keçən ilin sentyabrında apardığımız hərbi əməliyyatlar bütün beynəlxalq humanitar hüquqa uyğun şəkildə aparılmışdır".

Bu sözləri Prezident İlham Əliyev fevralın 26-da Xocalı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə deyib.

Bunun bir daha xalqımızın böyüklüyünü göstərdiyini vurğulayan dövlətimizin başçısı qeyd edib: **"Halbuki hər birimizin ürəyində qisas hissi var, hər birimiz o qanlı tarixə qayıdanda, o dəhşətli video və fotosənədlərə baxanda bizi qəzəb boğur, 30 il yox, 300 il keçsə də, bu qəzəb bizi buraxmayacaq. Bu, təbiidir, biz insanıq, ancaq eyni zamanda, biz böyük xalqın nümayəndələriyik"**



# XİN Ermənistanın Sumqayıt hadisələri ilə bağlı bəyanatına münasibət bildirib

“Ermənistan Xarici İşlər Nazirliyinin Sumqayıt hadisələri ilə bağlı bəyanatında ölkəmizə qarşı irəli sürdüyü iddialar tamamilə əsassız olmaqla yanaşı, tarixi faktların təhrif edilməsi və saxtalaşdırılmasıdır”.
Bu fikirlər Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin mövzu ilə bağlı şərhində yer alıb.
A.Hacızadə, həmçinin bildirib: “Bu bəyanat 1980-ci illərin sonlarından başlayaraq Ermənistanın Azərbaycana qarşı əsassız və qeyri-qanuni ərazi iddialarını həyata keçirmək məqsədilə zorakılıq əməllərini, Ermənistan ərazisində yaşayan azərbaycanlı əhalinin kütləvi qovulmasını, Azərbaycan xalqına qarşı terroru, etnik zəmində təxribatları və hərbi gücdən istifadəni ört-basdır etmək cəhdidir.
Ermənistan XİN-ə xatırladırıq ki, Sumqayıtda etnik zəmində törədilən iğtişaş SSRİ və Ermənistan rəhbərliyinin, erməni şovinist ideoloqların, ekstremist təşkilatların əvvəlcədən düşünülmüş və planlaşdırılmış məqsədyönlü təxribatlarının tərkib hissəsi idi.
Həmçinin qeyd edək ki, SSRİ Baş Prokurorluğu tərəfindən baş vermiş hadisə ilə bağlı cinayət işi açıldığı, nəticədə iğtişaşların icraçıları və əlbir olan şəxslər, həmçinin ümumi sayı 32 nəfərdən ibarət qurbanların müəyyən edildiyi hər kəsə məlumdur. Hadisənin qurbanları arasında 6 nəfər azərbaycanlının olması bu iğtişaşların azərbaycanlı əhali tərəfindən həyata keçirilmədiyini sübut edir.
Ermənistan XİN-in diqqətinə çatdırırıq ki, hadisələrin səbəbkarı, yürüşə başçılıq edən, şəxsən 6 nəfəri öldürən və erməni millətindən olan 3 qadına təcavüz edən şəxs milliyyətcə erməni olan Eduard Qriqoryan olub və onun barəsində Sumqayıtda yaşayan ermənilərin çoxsaylı şahid ifadələri toplanıb. Məhkəmənin qərarı ilə 12 il azadlıqdan məhrum edilən E.Qriqoryan cəzasını çəkmək üçün Ermənistana köçürülüb və daha sonradan azadlığa buraxılıb.
1988-ci il 27-29 fevral tarixli Sumqayıt hadisələri ilə əlaqədar məhkəmə prosesinin nəticələri ilə bağlı təqsirkar bilinən 92 nəfər barəsində həbs cəzası verilib, həmçinin bir nəfər ölüm cəzası alıb”.
Mətbuat katibi qeyd edib ki, bununla yanaşı, Azərbaycan ərazilərinə qarşı hərbi təcavüz zamanı Ermənistanın Xocalı daxil olmaqla bir çox şəhər və kəndlərdə törətdiyi çoxsaylı müharibə və insanlıq əleyhinə cinayətləri törədənlərdən heç kimin bu günədək hüquqi məsuliyyətə cəlb olunmadığı Ermənistan XİN-ə məlumdur.
Ermənistan XİN-ə xatırladırıq ki, Azərbaycan Respublikası beynəlxalq səviyyədə tanınmış suveren ərazisinin bir hissəsində Ermənistanın onilliklər boyu davam edən hərbi işğalına son qoyub, ərazi bütövlüyü və suverenliyini təmin edib.
Ermənistan tərəfinin guya ermənilərə qarşı “etnik təmizləmə” siyasəti həyata keçirildiyi, tarixi və dini abidələrin hədəf alındığı barədə iddialar səsləndirmək əvəzinə, nəinki indiki Ermənistan ərazisində, eləcə də işğal dövründə azərbaycanlılar və Azərbaycan irsinə qarşı törətdiyi cinayət əməllərinə nəzər yetirməsi daha faydalı olardı.

# Rusiyalı ekspertlər Paşinyanın “France 24” teleşirkətinə sonuncu bəyanatını şərh ediblər

***Rusiyalı ekspertlər AZƏRTAC-ın müxbiri ilə söhbətlərində Ermənistanın baş naziri Nikol Paşinyanın “France 24” televiziya şirkətinə verdiyi sonuncu bəyanatı şərh ediblər.***



Paşinyan Fransa televiziya şirkətinə müsahibəsində xüsusən bəyan edib ki, İrəvan Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında (KTMT) üzvlüyünün “dondurulması” barədə qərar qəbul edib. Bununla yanaşı, erməni baş nazir qeyd edib ki, Moskva bir neçə ay bundan əvvəl erməni əhalini açıq-aşkar ölkədə hakimiyyəti devirməyə çağırıb.
**Hərbi analitik, “Nasionalnaya oborona” jurnalının baş redaktoru İqor Korotçenko:**
-Ermənistan və Rusiyanın ayrılma prosesi başladı. Onun nə dərəcədə ağrılı və hansı müddətdə baş verəcəyi məsələsi artıq müşayiətedici amildir. Rusiyanın hazırkı rəhbərliyi Ermənistana etibarlı, irəlini qabaqcadan görən və məsul sayıla bilən tərəfdaş kimi baxa bilməz. Ermənistan Rusiya ilə əvvəllər qurulan bütün münasibətlərə xəyanət edir. Cənubi Qafqazda və postsovet məkanında yeni reallıqlar və siyasət çərçivəsində Rusiya Ermənistanın xəyanət faktını nəzərə alacaq.
**Siyasi Araşdırmalar İnstitutunun direktoru Sergey Markov:**
-Paşinyan qorxur ki, Rusiya onu devirər. Ermənistanda xeyli rusiyapərəst siyasətçilər var. Niyə? Çünki Rusiyanın ermənilərə nə qədər yaxşılıq etməsi onların yadındadır. Erməniləri indi yaşadıqları yerə Rusiya köçürüb. Paşinyan hamını qabaqcadan qorxutmaq istəyir, lakin Rusiyanın Paşinyanın devrilməsini hazırlaması barədə heç bir məlumat yoxdur. Rusiya çox ehtimal ki, Paşinyanın Ermənistan daxilində, bataqlıqda olduğu kimi batacağına ümid edir.
KTMT-də üzvlüyün “dondurulması” barədə bəyanata gəlincə, o halda bu bəyanat Paşinyanın Makronla birgə işləyib hazırladığı “minlərlə xırda addım” strategiyası çərçivəsində verilib. Fransa hazırda Paşinyanın əsas müttəfiqidir, əslində, Paşinyan Makronla birlikdə Rusiyaya, olar bilər Azərbaycana da, hətta Ermənistan xalqına qarşı da sui-qəsd hazırlayır.
**Politoloq Darya Qrevtsova:**
-Bir tərəfdən görürük ki, Paşinyan faktiki olaraq artıq KTMT-də üzvlüyü dayandırıb, çünki bu təşkilatın əsas tədbirlərində iştirak etmir. Lakin de-yure KTMT-nin Katibliyinə göndərdiyi heç bir sənəd yoxdur. Onun indi səsləndirdiyi fikir Moskvanı çox narahat edir, çünki bu, bütün prosesin hüdudlarından kənara çıxır. Digər tərəfdən, Paşinyan indi KTMT-dən çıxmayacaq, bu, ona sərfəli deyil. O, Qərblə münasibətlərdə fəal olmaq istəyir. Belə desək, Qərbə göstərmək istəyir ki, Moskvaya qarşı çıxış edir. Buna görə də biz belə qənaətə gəlirik ki, Paşinyan bundan sonra da bu cür təxribatlar təşkil edəcək. Lakin bu təxribatlarda hansı dərəcədə qətiyyətli olacağı isə hələ sual altındadır.

# “Bir millət, iki dövlət” kimi məqsədimiz Xocalı soyqırımının unudulmamasıdır”




“Niderland Krallığında yaşayan Azərbaycan və türk icmalarının üzvlərinin hər il fevralın 26-da Xocalı soyqırımı qurbanlarını anmaq üçün bir araya gəlmələri çox vacibdir. Bunu daim davam etdirmək lazımdır. İcmalarımız Xocalıda mülki insanlara qarşı törədilmiş bu haqsızlığı Beynəlxalq Ədalət Məhkəməsinin yerləşdiyi Haaqada hər kəsə anlatmağa davam etməlidirlər. Bu soyqırımını, bu haqsızlığı, bu vəhşiliyi unutdurmamağa çalışmalıyıq”.
Bu sözləri Türkiyənin Niderlanddakı səfiri Selçuk Ünal deyib.
Diplomat bildirib ki, “Bir millət, iki dövlət” kimi məqsədimiz bu soyqırımının unudulmamasına çalışmaqdır. Bu ölkədə yaşayan soydaşlarımızın da bunda əməyi böyükdür. Xocalı şəhidlərinin anım mərasiminə toplaşanların sayı hər il artır. Bu isə hər birimiz üçün böyük məmnunluq doğurur. Buradakı icmalarımızın üzvləri bu faciə ilə bağlı həqiqətləri daha çox yaymalı, bununla bağlı maarifləndirmə işlərini gücləndirməlidirlər.

# İƏT Xocalı soyqırımının 32-ci ildönümü ilə bağlı bəyanat yayıb

İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibliyi Xocalı soyqırımının ildönümü ilə bağlı bəyanat yayıb.
Bəyanatda deyilir: “1992-ci ildə Azərbaycan Respublikasının Xocalı şəhərində törədilən soyqırımının 32-ci ildönümü ilə bağlı İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi cənab Hissein Brahim Taha şəhid olanların xatirəsinə ehtiramını bildirib.
Baş katib Xocalı hadisəsinin Ermənistan Respublikası tərəfindən Azərbaycan ərazilərinin qanunsuz işğalının nəticəsi olduğunu bir daha vurğulayıb. O, 2013-cü ildə Qahirədə keçirilən İslam Zirvə Toplantısının 12-ci sessiyasında qəbul edilmiş Qahirə Yekun Bəyannaməsinə (117-ci bənd) və “1992-ci il Xocalı qətliamının qurbanları ilə həmrəylik haqqında” 47/49-POL saylı Qətnaməyə istinad edib, 2023-cü ildə Mavritaniya İslam Respublikasının Nuakşot şəhərində keçirilmiş Xarici İşlər Nazirləri Şurasının 49-cu sessiyasında qəbul edilmiş və işğal olunmuş Xocalı şəhərində mülki azərbaycanlı əhaliyə qarşı törədilmiş kütləvi vəhşilikləri hərbi cinayətlər, insanlıq əleyhinə cinayətlər və soyqırımı kimi qiymətləndirib”.



# Fransanın "La Gazette du Caucase" nəşri "L'Express" qəzetinin anti-Azərbaycan materialını tənqid edib

Parisdə yerləşən "La Gazette du Caucase" onlayn qəzetinin baş redaktoru, tanınmış fransalı jurnalist Jan-Mişel Bryun Fransanın "L'Express" qəzetinin dərc etdiyi anti-Azərbaycan materialına cavab olaraq məqalə dərc edib.
"Bu həftə "L'Express" Azərbaycan və Ermənistana bir neçə məqalə həsr edib. 25 fevral tarixli məqalə xüsusən diqqət çəkir. Fevralın 25-də "L'Express" qəzeti Azərbaycanın guya Fransanı "destabilizə" etməyə çalışdığı haqda material dərc edib. Bu saxta informasiya Azərbaycanın guya Fransanın Olimpiya Oyunlarını təşkil etməyə qadir olmadığını iddia etdiyinə, eləcə də, Bakının guya fransız siyasətçiləri satın almaq cəhdlərinə dair yalan xəbərlər seriyasının bir hissəsidir. Bütün bunlar Azərbaycanın Qarabağı geri qaytarması ilə barışa bilməyən erməni lobbisinin işidir", - məqalədə deyilir.
Müəllif "L'Express" qəzetinin neokolonial və islamofob Fransanın obrazını inkar etməyə çalışdığını, lakin bunun saysız-hesabsız dəlillərinin olduğunu qeyd edir.
"Frankofoniya dövründən yaxın zamanda Fransa regiondan qovulana qədər Afrika həyasızcasına talan olunmadımı? BMT-nin 1946-cı ildə dekolonizasiya olunmalı ölkələr siyahısına daxil edilən Fransa Polineziyası 2013-cü il mayın 17-də bərpa edilmədimi? Bundan başqa, dünyada Qarabağdakı erməni separatçılarını dəstəkləyən çox az ölkədən biri olan Fransa bu gün Azərbaycanın Yeni Kaledoniyada müstəqillik uğrunda mübarizə aparanları dəstəklməsindən hiddətlənir.
Fransa islamofobiyasına gəlincə, müsəlman məktəbləri ən uydurma bəhanələrlə bağlandı. Şimali Afrika mənşəli adlara malik şəxslərin işə qəbul və ya yaşayış yerinin təmin olunması zamanı ayrı-seçkiliyə məruz qalmasını, müsəlman assosiasiyalarının bank hesablarının bağlanmasını, yalnız müsəlmanlara münasibətdə "xarici dini simvollar"a qadağanın tətbiq olunmasını bunlara misal göstərmək mümkündür", - müəllif yazır.
Jan-Mişel Bryun vurğulayıb ki, "L'Express" son buraxılışında ermənilərin guya Qarabağdan "qovulduğu" haqqında məqalə dərc edib, lakin məqalədə 1992-ci ildə evlərindən qovulan yüz minlərlə azərbaycanlıdan, yaxud əsrlərlə Ermənistanda yaşayan və 1987-ci ildə Qafqazda indiyədək həyata keçirilən ən böyük etnik təmizləmə zamanı deportasiya edilən 250 min azərbaycanlıdan bəhs olunmur.
Azərbaycanın guya Fransanı nüfuzdan salmağa və Parisdə Olimpiya Oyunlarının keçirilməsini boykot etməyə çalışdığına dair “əsas”ları şərh edən Jan-Mişel Bryun qeyd edir ki, Bakının bununla heç bir əlaqəsi yoxdur, əksinə, İl-de-Frans regionunun prefekti və prezidenti, polis və Hesablama Palatası artıq hər gün oyunların təşkilinə diletant yanaşmanın olduğundan və bütün sahələrdə, xüsusən təhlükəsizlik və nəqliyyat sahələrində ləngimədən xəbər verirlər. Fransız karikaturaçıları isə açıq qapılar günü keçirərək, turistlərin gəlişini səbirsizliklə gözləyən Paris siçovullarının rəsmini çəkirlər.

# İkili siyasət yeridən Aİ-nin növbəti riyakarlığı

Avropa İttifaqının (Aİ) xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali komissarının mətbuat katibi Peter Stano Azərbaycana qarşı səsləndirdiyi qərəzli açıqlamaları ilə yenidən gündəmə gəlib.
Stano bu açıqlamaları Ermənistanın "Armenpress" xəbər agentliyinə verdiyi müsahibəsində bildirib.
Ali komissarının nümayəndəsi bildirib ki, Aİ Ermənistana heç bir hücumun olmayacağı fikrindədir.
"Lakin Aİ çox aydın şəkildə bildirib ki, Ermənistanın ərazi bütövlüyü və suverenliyi pozularsa, biz cavab verəcəyik", - Stano deyib.
Erməni müxbirin Azərbaycana qarşı sanksiyaların tətbiq olunma ehtimalı ilə bağlı təxribatçı sualına isə Stano sanksiyaların bütün problemləri həll etmədiyini bildirib.
"Biz, adətən, digər bütün vasitələrlə istənilən məqsədlər əldə olunmadıqda sanksiyalar tətbiq etməyə başlayırıq", - deyə Aİ nümayəndəsi deyib.
Qeyd edək ki, bunlar Aİ nümayəndəsinin Azərbaycana qarşı ilk qərəzli açıqlamaları deyil. Belə ki, Peter Stano ötən ilin noyabr ayında da Brüsseldə "Armenpress" xəbər agentliyinə verdiyi müsahibəsində ölkəmizlə bağlı qərəzli fikirlər səsləndirib. Bu isə Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasında vasitəçilik roluna iddia edən Aİ-nin ikili siyasət yeritdiyinin növbəti sübutudur.
Xatırladaq ki, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin (XİN) mətbuat katibi Ayxan Hacızadə Aİ ali komissarının mətbuat katibi Peter Stanonun ötənilki müsahibəsində səsləndirdiyi fikirlərə münasibət bildirib.
"Avropa İttifaqının nümayəndəsinin 30 il ərzində Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün işğalçı və təcavüzkar Ermənistan tərəfindən pozulması, azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti yürütməsi, 1 milyondan çox azərbaycanlının məcburi köçkün və qaçqın vəziyyətinə düşməsi faktlarını görməzdən gəlməsi təəssüf doğurur.
Bir daha vurğulayırıq ki, Azərbaycanın Ermənistanla normallaşma və sülh gündəliyinə sadiqliyi möhkəmdir və bu mövqe 2020-ci ilin noyabr ayından etibarən sülh müqaviləsinin təşəbbüskarı olaraq tərəfimizdən atılan ardıcıl addımlarla sübut edilib", - Azərbaycan XİN nümayəndəsi deyib.

# Akademik Akif Əlizadənin 90 illik yubileyi qeyd edilib

***AMEA Rəyasət Heyətində Azərbaycanda geologiya elminin inkişafında mühüm xidmətləri olan görkəmli alim, akademik Akif Əlizadənin 90 illik yubileyinə həsr olunan elmi sessiya keçirilib. Mərasim iştirakçıları əvvəlcə foyedə yubilyarın elmi və elmi-təşkilati fəaliyyətini əks etdirən sərgi ilə tanış olublar.***






Akademiyadan AZƏRTAC-a bildirilib ki, elmi sessiyanı açan AMEA-nın prezidenti akademik İsa Həbibbəyli yubilyarın mənalı və şərəfli həyat yolundan, elmi fəaliyyətindən danışıb. Qeyd edib ki, görkəmli alim ölkəmizdə və beynəlxalq aləmdə geologiya sahəsində elmi məktəb yaradıb, elmi yaradıcılıq fəaliyyəti ilə yüksək təşkilatçılıq işini və vətəndaşlıq missiyasını üzvi surətdə əlaqələndirməyi bacarıb.

AMEA prezidenti İsa Həbibbəyli akademik Akif Əlizadənin həyatını bütünlüklə paleontologiyaya sahəsinə həsr etdiyini bildirib. Diqqətə çatdırıb ki, Yer kürəsinin Mezozoy qatında baş verən proseslərin geopaleontoloji baxımdan tədqiqi Akif Əlizadənin çoxillik araşdırmaları ilə yeni bir dərinlik qazanıb. Alimin özünəməxsus paleontoloji metodları sayəsində geologiya ilə yanaşı, coğrafiya, zoologiya, biokimya elmlərinin kompleks tətbiqi əsasında və riyazi elementlərin cəlb edilməsi vasitəsilə Yer təkinin daha dəqiq öyrənilməsinin möhkəm elmi əsasları yaradılıb.

Akademik Akif Əlizadənin əsərlərində Azərbaycan elmində ilk dəfə olaraq böyük bir coğrafiyanın geopaleontozoologiyası sistemli şəkildə tədqiq olunaraq ümumiləşdirilib. Bundan başqa, Qafqazın Azərbaycan hissəsinin geopaleontozoologiyasının elmi əsaslarla tədqiqi böyük alimin adı ilə bağlıdır.

Qeyd olunub ki, akademik Akif Əlizadənin həyatı 1957-ci ildən etibarən Elmlər Akademiyası ilə bağlıdır. O, akademik yolun bütün mərhələlərini uğurla keçib, dərin biliyi və geniş dünyagörüşü ilə laborantdan AMEA-nın prezidenti vəzifəsinədək yüksəlib. Görkəmli alim Elmlər Akademiyası sistemində ən gənc elmlər namizədi və elmlər doktoru, ən cavan institut direktoru kimi ilklərə də imza atıb. O, 48 ildir ki, Geologiya və Geofizika İnstitutuna rəhbərlik edir.

***Görkəmli alimin çoxillik elmi-təşkilati fəaliyyətinin dövlətimiz tərəfindən daim yüksək qiymətləndirildiyini söyləyən akademik İsa Həbibbəyli onun "Əməkdar elm xadimi" fəxri adına, Dövlət mükafatına layiq görüldüyünü, "Şöhrət", "Şərəf", "İstiqlal", I dərəcəli "Əmək" ordenləri ilə təltif edildiyini xatırladıb. O, Prezident İlham Əliyevin 2024-cü il 25 fevral tarixli Sərəncamı ilə akademik Akif Əlizadənin "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edildiyini diqqətə çatdırıb. AMEA rəhbəri bu Sərəncamın Azərbaycan elminə verilən qiymətin ifadəsi olduğunu bildirib, Azərbaycan alimləri adından elmimizə, elm adamlarına verdiyi yüksək dəyərə görə ölkə rəhbərinə təşəkkür edib.***

AMEA prezidenti yüksək dövlət mükafatını - "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu"nu, həmçinin AMEA-nın Fəxri fərmanını akademik Akif Əlizadəyə təqdim edib.

Sonra AMEA-nın vitse-prezidenti akademik İbrahim Quliyev "Akademik Akif Əlizadə - alim, novator və elm təşkilatçısı" mövzusunda məruzə ilə çıxış edib. Məruzəçi bildirib ki, akademik Akif Əlizadə ölkəmizdə elm və təhsilin inteqrasiyasına xüsusi diqqət yetirib, kadr hazırlığı sisteminin müasir standartlara uyğun təkmilləşdirilməsi, elmi tədqiqat işlərinin nəticələrinin tədris prosesində tətbiqi, multidisiplinar biliklərin tədrisi istiqamətində mühüm işlər həyata keçirib.

Tədbirdə, həmçinin Bakı Dövlət Universitetinin kafedra müdiri, akademik Vasif Babazadənin "Endogen metallogeniyanın problemləri", Neft və Qaz İnstitutunun baş direktoru, akademik Fəxrəddin Qədirovun "Qafqazın müasir geodinamikasının öyrənilməsində Geologiya və Geofizika İnstitutunun Massaçusets Texnologiya İnstitutu ilə uzunillik əməkdaşlığı" və Təbiət Tarixi Muzeyinin baş direktoru Tariyel Eybatovun "Azərbaycanda paleontoloji və stratiqrafik elmi tədqiqatlar: nailiyyətlər və perspektivlər" mövzusunda məruzələri dinlənilib.

Daha sonra Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanov, "Azərbaycan İnterneşnl Mayninq Compani Limited" (AİMK) şirkətinin baş vitse-prezidenti Fərhəng Hedjazi və Azərbaycan Memarlar İttifaqının sədri Elbay Qasımzadə çıxış edərək, akademik Akif Əlizadəni 90 illik yubileyi münasibətilə təbrik ediblər.

Tədbirdə, həmçinin xarici ölkələrdən görkəmli alimlərin yubilyara ünvanlanmış təbrik məktubları səsləndirilib, videotəbriklər nümayiş olunub.

Akademik Akif Əlizadə mənsub olduğu nəslin bütün sahələrdə dəstəklənməsində Ulu Öndər Heydər Əliyevin böyük diqqət və qayğısından söz açıb. Vurğulayıb ki, bu gün Ümummilli Liderin siyasi kursu Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Sonda akademik Akif Əlizadənin həyat yolunu əks etdirən "Elmə həsr olunmuş ömür" filmi nümayiş etdirilib.

***Tədbirdə dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, komitə və şirkətlərin, ali təhsil müəssisələrinin və beynəlxalq təşkilatların rəhbərləri, elmi ictimaiyyətin nümayəndələri iştirak ediblər.***

# "Beynəlxalq Aqro Biznes Forum - 2024" keçirilib




***Kənd Təsərrüfatı Nazirliyinin, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) tərəfdaşlığı, KOB Subyektləri və Klublarının Assosiasiyasının (KOBSKA) və "Agro TV Azərbaycan"ın birgə təşkilatçılığı ilə "Beynəlxalq Aqro Biznes Forum - 2024" keçirilib.***

İki gün davam edən forum çərçivəsində sərgi, panel müzakirələr və B2B görüşlər də təşkil edilib.

Tədbirdə Milli Məclisin deputatları Z.Səmədzadə, T.Rzayev, V.Bayramov, E.Allahverdiyev, dövlət rəsmiləri, QHT və şirkət nümayəndələri, fermerlər, investorlar iştirak ediblər.

Milli Məclisin deputatları, Aqrar İnnovasiya Mərkəzi, KOBİA, Türk Dövlətləri Təşkilatı, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, KOBSKA və digər qurumların nümayəndələri, şirkət təmsilçiləri çıxışlarında kənd təsərrüfatı sektorunda perspektivlərə, bu sahədə türkdilli dövlətlər, o cümlədən Türkiyə və Azərbaycan arasında əlaqələrə və əməkdaşlıq imkanlarına dair fikirlərini bölüşüblər.

İki gün davam edən forum çərçivəsində 30-a yaxın şirkətin məhsul və xidmətlərindən ibarət sərgi, sektorun gündəmində olan məsələlərin müzakirə olunduğu panel iclaslar, müxtəlif ölkələrdən olan şirkətlərin təqdimatları və B2B görüşlər də təşkil edilib.



# UNEC-də iqtisadçı tələbələrin Milli Prioritetlərə həsr olunan I Şəbəkələşmə Forumu keçirilib



Fevralın 23-də Azərbaycan Respublikası Gənclər Fondunun maliyyə dəstəyi, "İqtisadçı Tələbələrə Dəstək" İctimai Birliyinin təşkilatçılığı və Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) tərəfdaşlığı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" - İqtisadçı Tələbələrin I Şəbəkələşmə Forumu keçirilib.

Forumun məqsədi iqtisadiyyat ixtisası üzrə təhsil alan tələbələrin "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"lə bağlı maariflləndirilməsi və Milli Prioritetlərin həyata keçirilməsində onların rolunun artırılmasından ibarət olub.



Forumun açılışında çıxış edən UNEC-in tələbələrlə iş üzrə prorektoru dos.Səadət Qəndilova iştirakçıları salamlayaraq, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in gənclər, xüsusilə də iqtisadçı tələbələr arasında təbliğinin vacibliyindən danışıb. O, forum çərçivəsində ilk dəfə olaraq, iqtisadiyyat ixtisası üzrə təhsil alan gənclərin bir araya gəldiyini, panel sessiyalarda müəllim və tələbələr tərəfindən Milli Prioritetlərin bütün istiqamətlərini əhatə edən müzakirələrin aparılacağını bildirib.

İqtisadçı Tələbələrə Dəstək İB-nin sədri, forumun moderatoru Səməd Rzazadə aparılan müzakirələrdə milli prioritetlər barədə gənclərin məlumatlandırılacağını, onların bu istiqamətdə təkliflər və təşəbbüslərinin aidiyyəti qurumlara təqdim olunacağını bildirib. Eyni zamanda, tələbələrdən ibarət yaradılmış işçi qrupunun üzvləri ilə bir sıra dövlət qurumlarının rəsmiləri arasında görüşlərin keçirilməsinin və müzakirələrin aparılmasının nəzərdə tutulduğunu bildirib.

Sonra Azərbaycan İqtisadçılar İttifaqının sədr müavini, UNEC-in dosenti Elşad Səmədzadə,"İqtisadiyyat" kafedrasının müəllimi Aslan Əzimzadə və UNEC Tələbə Elmi Cəmiyyətinin sədri Jalə Teymurlu mövzu ilə bağlı çıxışlar ediblər.

Forum rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı, təmiz ətraf mühit və yaşıl artım ölkəsi mövzularına həsr olunan panel sessiyalarla davam edib.

Sonda çıxış edənlərə sertifikatlar təqdim olunub.

# Dayanıqlı inkişaf. Hesabatlılıq. Şəffaflıq

***"...Bizim siyasətimiz uzunmüddətli siyasətdir. Biz ölkəmizin gələcəyi, uzunmüddətli, dayanıqlı inkişaf haqqında düşünürük."***

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Azərbaycanda 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Dövlət başçısı bu Sərəncamı iqlim dəyişmələrinə qarşı qlobal mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə imzalayıb. Sərəncamda qeyd olunub ki, Azərbaycan beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verir.***




Dayanıqlı İnkişaf Məqsədləri (DİM) ölkənin 2030-cu ilədək milli inkişaf prioritetlərində nəzərə alınmışdır. Belə ki, Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilib. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır.

İşğaldan azad edilən Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası yaşıl enerji zonası elan olunub. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritetdir. Həmin ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur. Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Azərbaycan elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə mühüm töhfədir.

Prezident İlham Əliyev ötən il dekabrın 15-də COP29-un ölkəmizdə keçirilməsi ilə əlaqədar müşavirədə vurğulayıb: ***"Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcəkdir və dünyada hər kəs bir daha görəcək ki, bizim gündəliyimiz yaşıl enerji ilə bağlıdır. Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir. Bu, reallıqdır və bütün dünya bunu bir daha görəcək".***

Ötən il fevralın 3-də Bakıda keçirilən ənənəvi Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu iclası ilə yanaşı, ilk dəfə Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclası baş tutub. Bu iclas Azərbaycanın bərpa olunan enerji istehsalı məsələsinə nə dərəcədə önəm verdiyini göstərir.

Dünyada hökm sürən iqtisadi qeyri-sabitlik və qeyri-müəyyənlik ətraf mühitə amansız münasibətdən və iqlim dəyişikliyindən doğan təhlükəli təbiət hadisələri, sosial-siyasi tələtümlər, miqrasiya və hərbi münaqişələrlə bağlıdır. Məhz bu göstərilən səbəblərdən milyonlarla insanın həyat şəraiti pisləşir və dünya iqtisadiyyatında reqressiya təhlükəsi özünü biruzə verməkdədir. Bu cür halların aradan qaldırılması üçün sosial-iqtisadi həyata və təbiətin mühafizəsinə yeni yanaşmaların qəbul edilməsi və həyata keçirilməsi zərurəti müasir dövrün ən mühüm çağırışlarından biri kimi dünya ölkələrinin diqqətini cəlb etməkdədir.

***Bunun bariz sübutu olaraq bir neçə il əvvəl BMT-nin sammitində 193 ölkə liderləri tərəfindən Dayanıqlı İnkişafa (Dİ) dair 17 prinsipin razılaşdırılmasını göstərmək olar.***

Məlumdur ki, ən ümumi anlamda Dİ dedikdə hazırki nəslin tələbatının gələcək nəsillərin imkanları hesabına reallaşdırılmamasını özündə ehtiva edən inkişaf nəzərdə tutulur.

Daha geniş anlamda isə Dİ iqtisadiyyatın sosialyönümlü innovasiya modelinə keçməsi ilə yanaşı, regional-ərazi nöqteyi-nəzərindən balanslaşmış tərəqqi, təbii resurslardan səmərəli istifadə, yerli və qlobal maraqların uzlaşdırılması, ümumilikdə isə iqtisadi, sosial və ekoloji tarazlığa nail olma üzrə yeni mexanizmlərin tətbiqi anlamına uyğun gəlir. Başqa sözlə, Dİ prinsiplərinin reallaşdırılması bəşəriyyətin tələbatı ilə resurslardan istifadənin tarazlığını, təbii ehtiyatların tükənməsinin qarşısını almağı, digər tərəfdən də hakimiyyət orqanları, biznes strukturları və ictimaiyyətin Dİ problemləri istiqamətində səmərəli və qarşılıqlı əlaqələrinin təmin olunmasını tələb edir. Dİ hər bir ölkənin, regionun və iqtisadi subyektin məsul olduğu mühüm bəşəri problemdir.

Bu göstərilənlər aspektində yeni şəraitdə şəffaflığın təmin olunması mühüm əhəmiyyətə malikdir. Məhz şəffaflıq, hesabatlılığın və obyektiv, keyfiyyətli informasiya təminatının əsası qismində resurslardan səmərəli və məqsədyönlü istifadənin təmin olunmasında Dİ mühüm amil kimi dəyərləndirilir.

***Heç də təsadüfi deyildir ki, Dİ məqsədlərində informasiya əlçatanlığı, məlumatların toplanması, monitorinqi və hesabatlılıq ən mühüm elementlər kimi dəyərləndirilir.***

Ümumiyyətlə, Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) məlumatına görə, 17 DİM-in 8-i mühasibat uçotu, hesabatlılıqla və o cümlədən, auditlə birbaşa əlaqədardır. Başqa sözlə, mühasiblər və auditorlar DİM-in reallaşmasında mühüm rola malikdirlər. Bununla yanaşı, mühasibat uçotunun və auditin də korporativ Dİ-nin yeni tələblərinə uyğun olaraq transformasiyası günün tələbləri sırasındadır.

Aparılan tədqiqatlar onu da göstərir ki, mühasiblər və auditorlar: ***a) maliyyə hesabatları təqdim və təsdiq edilərkən DİM üzrə mövcud durum barədə öz mülahizələrini təqdim etmək; b) şirkətləri DİM-in şərtlərini yerinə yetirməyə həvəsləndirmək və təşviq etmək; c) ətraf mühitin mühafizəsinə və sosial məsuliyyətə dair idarəetmənin məlumat bazasını formalaşdırmaq kimi məsələlərin həllində vacib rola malikdirlər.***

Eyni zamanda, auditorların və mühasiblərin məsuliyyətinin artırılması da günün vacib məsələlərindəndir.

Bütün bunlar isə öz növbəsində mühasibat uçotu və audit sahəsində kadr hazırlığı prosesinə DİM nöqteyi-nəzərindən yenidən baxmağı və köklü dəyişikliklərin edilməsi məsələsini gündəmə gətirir.

Dİ-nin bərqərar olması istiqamətində Azərbaycanda da mühüm tədbirlər həyata keçirilməkdədir.

***Ölkə prezidentinin də qəti mövqeyi inkişafın bütün sahələri əhatələməsi üçün sağlam insan konsepsiyasına sadiq qalınması, bu məqsədlə gələcək illərdə iqtisadi və demoqrafik artımdan ətraf mühitə gələ bilən risklərin azaldılması, uzun illər ərzində yaranan ekoloji problemlərin kompleks həlli və bu sahədə davamlı inkişafı təmin etməkdir.***

Aparılan tədqiqatlar da göstərir ki, DİM-in reallaşdırılması sahəsində hələ də ciddi problem və çatışmazlıqlar mövcuddur.

Azərbaycan Respublikasının Auditorlar Palatası və Hesablama Palatasının birgə təşkilatçılığı ilə Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyevin 100 illiyinə həsr edilmiş "Dayanıqlı inkişaf. Hesabatlılıq. Şəffaflıq" mövzusunda keçirilmiş beynəlxalq elmi-praktik konfransın materialları bu günlərdə çap olunmaqla işıq üzü görmüşdür.



**Səbuhi Gülməmmədov,**
**Azərbaycan Respublikası Auditorlar Palatasının icraçı direktoru**

Kitabda konfransda təmsil olunmuş qurumların adı, ön sözlər, "Dayanıqlı inkişaf. Hesabatlılıq. Şəffaflıq" mövzusunda beynəlxalq elmi-praktik konfransın iştirakçılarına Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının 2023-cü il 15 sentyabr tarixli müraciəti, konfrans iştirakçılarının çıxış və tezisləri, konfransın aktuallığı, mövcud nöqsanlar və zəifliklər, konfrans iştirakçıları tərəfindən Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması istiqamətində təcrübələr, bu sahədə beynəlxalq əlaqələrin genişləndirilməsi zərurəti və onun reallaşdırılmasının şərhi, "yaşıl iqtisadiyyat", sosial məsuliyyət və ekoloji tarazlığın təmin edilməsinə dair 50-ə yaxın məruzə və tezislər əsasında hazırlanmış beynəlxalq tədbirin 108 tövsiyəsi öz əksini tapmışdır.

***Ümidvarıq ki, bu tövsiyələr iqtisadi inkişafın müasir mərhələsində şəffaflığın təmin edilməsində və hesabatlılığın yüksək səviyyədə qurulmasında, Dİ sahəsində mövcud olan problemlərin və qarşıda duran vəzifələrin yerinə yetirilməsində mühüm rol oynayacaqdır.***

## BMT-nin İnkişaf Proqramı Azərbaycan rəsmiləri ilə müzakirələr aparıb



Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (BMTİP) Azərbaycan hökumətinin nümayəndələri ilə iqlim dəyişikliyi ilə bağlı fiskal risklərin dövlət və özəl investisiyalar üzrə qərarların qəbuluna təsirini müzakirə edib.

***"Milli adaptasiya planı" layihəsini hazırlayan BMTİP iqlim dəyişikliyinin investisiyaların planlaşdırılmasına fiskal təsirlərinin qiymətləndirilməsi üzrə texniki təlimat hazırlayıb və onları Bakıda planlaşdırılan bir sıra tədbirlər çərçivəsində keçiriləن seminarda müzakirə edib"***, - BMTİP-nin məlumatında deyilir.

Müzakirələrdə BMTİP-nin iqlim maliyyələşdirməsi üzrə eksperti Cennifer Jadin, Azərbaycanın iqlim maliyyələşdirməsi üzrə eksperti Rəşad Həsənov, ölkənin elmi dairələri və vətəndaş cəmiyyətinin nümayəndələri iştirak edib. ***"İqlim maliyyələşdirməsi həm iqlim dəyişikliyi ilə əlaqədar nəticələrin yumşaldılması, həm də onlara adaptasiya üzrə səylər üçün mühüm əhəmiyyət kəsb edir. Hesab edirik ki, müxtəlif mənbələrdən irimiqyaslı investisiyalar istixana qazlarının tullantılarının əhəmiyyətli dərəcədə azalmasına təsir göstərə bilər"***, - məlumatda deyilir.

## Bank sektorunun xalis mənfəəti artıb



Bu ilin yanvar ayında Azərbaycanda banklar 99.6 mln. manat xalis mənfəət əldə edib ki, bu da ötən ilin eyni dövrünə nisbətən 10,3% çoxdur.

Bu barədə Azərbaycan Mərkəzi Bankından bildirilib.

Bu dövrdə banklar 143.6 mln. manat məbləğində əməliyyat mənfəəti əldə edib.

## Azərbaycanda nağd pulun həcmi açıqlanıb

Azərbaycanda 2023-cü ildə manatla pul bazası 19.6% artaraq 20.9 mlrd. manat təşkil edib.

Bu barədə Mərkəzi Bankın 2023-cü il üzrə Pul Siyasəti İcmalında deyilir.

Qeyd edilib ki, il ərzində pul bazasına Mərkəzi Bankın valyuta müdaxiləsi və vahid xəzinə hesabının qalığının dəyişimi artırıcı, sterilizasiya əməliyyatları isə azaldıcı təsir edən əsas amillər olub.

Hesabat ilində manatla pul bazasının struktur elementi olan dövriyyədəki nağd pulun həcmi 17.3 mlrd. manata, manatla müxbir hesabların qalığı isə 3.5 mlrd. manata yüksəlib.

## Problemli kreditlərin məbləği azalıb

Bu il fevralın 1-nə Azərbaycanda vaxtı keçmiş kreditlərin məbləği 454,1 milyon manat təşkil edib.

Bu barədə Azərbaycan Mərkəzi Bankı məlumat yayıb.

Bildirilib ki, bu, yanvarın 1-i ilə müqayisədə 3,7% çoxdur.

Ölkədə problemli kreditlərin məbləği son 1 ildə isə 22,2% azalıb.

Bu il yanvarın sonuna vaxtı keçmiş kreditlərin ümumi kredit portfelində xüsusi çəkisi 1,9% təşkil edib. Bu nisbət ötən il dekabrın sonuna 1,8%, ötən il yanvarın sonuna isə 2,9% olub.

# Азербайджан и Германия обсудили реализацию совместных проектов




Об этом написал в соцсети X министр экономики Азербайджана Микаил Джаббаров.

"Во время встречи с управляющим директором "Восточной бизнес-ассоциации Германии" Михаэлем Хармсом и представителями немецких компаний, посещающих нашу страну, мы обсудили бизнес-климат Азербайджана и условия, предоставляемые иностранным инвесторам. Мы предложили немецким бизнесменам воспользоваться этими благоприятными условиями и оценили перспективы расширения инвестиционных связей и реализации совместных проектов", - говорится в публикации.

Напомним, что согласно данным Государственного таможенного комитета Азербайджана в январе 2024 года Азербайджан экспортировал в Германию товаров на сумму 2,466 миллиона долларов США, а импортировал товаров на сумму свыше 57,543 миллиона долларов.

# Началась добыча газа с северо-восточного крыла месторождения «Шахдениз»



Компания bp начала добычу газа на северо-восточном крыле месторождения «Шахдениз» в рамках Стадии-2 разработки данной контрактной площади, говорится в сообщении компании bp-Azerbaijan (технический оператор проекта).

«Добыча газа в рамках Стадии-2 проекта «Шахдениз» на северо-восточном фланге месторождения началась 13 февраля. До этого все сопутствующие строительные работы и эксплуатационные испытания на северо-восточном крыле были успешно завершены и система полностью введена в эксплуатацию», - говорится в сообщении.

По данным компании, на северо-восточном крыле в настоящее время имеются пять скважин, два добывающих манифольда, две новые проточные линии общей протяженностью около 30 км и несколько подводных установок, соединенных с газоконденсатным резервуаром мирового класса «Шахдениз».

«В настоящее время добывающие мощности месторождения «Шахдениз» составляют примерно 79 миллионов кубометров газа в сутки или 29 миллиардов кубометров в год», - отметили в компании.

# Зангезурский коридор позволит расширить пропускную способность Среднего коридора



- Реализация проекта Зангезурского коридора расширит пропускную способность Среднего коридора на 8-10 миллионов тонн в год.

Об этом заявил заместитель министра цифрового развития и транспорта Азербайджана Рахман Гумматов в ходе презентации исследования по Среднему коридору, проведенного сегодня Всемирным банком в Тбилиси.

«На освобожденных территориях Азербайджана продолжается реализация крупномасштабных инфраструктурных проектов. Инвестирование в автомобильные и железные дороги в Карабахе для восстановления исторических связей является приоритетом, предполагающим установление коммуникационных линий. В этой связи, проект Зангезурского коридора создаст большие возможности для развития транспортно-логистического сектора и станет частью Среднего коридора. Этот проект значительно сократит расстояние, что приведет к существенному увеличению пропускной способности - на 8-10 миллионов тонн в год. Вместе мы полны решимости реализовать весь потенциал Среднего коридора, обеспечив его дальнейший успех в качестве жизненно важного маршрута для торговли», - сказал он.

Отметим, что предложенный Азербайджаном проект Зангезурского коридора направлен на установление транспортного сообщения между основной территорией Азербайджана и его эксклавом, Нахчыванской Автономной Республикой, проходящего через территорию Армении.

# О парламентских выборах в Республике Беларусь



Редакция газеты «Новое время» обратилась к руководителю Рабочей группы азербайджанско-белорусских межпарламентских связей Милли Меджлиса Азербайджанской Республики, члену Комитета по экономической политике, председателю Союза экономистов Азербайджана, академику Национальной академии наук Азербайджана Зияду Самедзаде с просьбой оценить состоявшиеся в воскресенье белорусские выборы.

З.Самедзаде: 25 февраля в Беларуси впервые проводился Единый день голосования. Выбирали депутатов Палаты представителей Национального собрания, а также проведены выборы в местные советы депутатов. Насколько я знаю, явка избирателей превысила 70 %, были избраны 110 депутатов нижней палаты Парламента Беларуси. Выборы прошли очень организованно, на альтернативной основе, из числа более 250 зарегистрированных кандидатов, в полном соответствии с национальным законодательством.

За выборами наблюдали около 300 международных наблюдателей, включая 9 человек от Азербайджана – представителей Милли Меджлиса, Центральной избирательной комиссии и Министерства иностранных дел.

Оценивая межпарламентское сотрудничество Азербайджана и Беларуси, скажу, что у нас сложились традиции взаимной поддержки в международных структурах, мы регулярно общаемся, обмениваемся визитами и опытом законотворчества.

От имени Рабочей группы азербайджанско-белорусских межпарламентских связей Милли Меджлиса Азербайджанской Республики хочу поздравить коллег из дружественной Беларуси с важным политическим событием в жизни страны – успешно проведенной электоральной кампанией. Искренне желаю новому составу депутатского корпуса успешной работы и надеюсь на дальнейшее конструктивное взаимодействие с Парламентом Азербайджана.

# Карпенко рассказал о новом составе Палаты представителей



Председатель Центральной избирательной комиссии Игорь Карпенко на пресс-конференции о предварительных итогах выборов депутатов в единый день голосования в информационном центре ЦИК рассказал о новом составе Палаты представителей, передает корреспондент БЕЛТА.

В единый день голосования избрано 110 депутатов Палаты представителей, персональные данные обнародованы в 2.00 26 февраля на пресс-конференции в информационном центре ЦИК.

• Палата представителей в новом составе соберется на сессию во второй половине марта

• ЦИК обнародовал фамилии депутатов Палаты представителей восьмого созыва

"Среди избранных депутатов являются депутатами Палаты представителей седьмого созыва 20 человек (18,2%). Женщины - 37 (33,6%). Молодежь в возрасте до 31 года - 1 человек. Члены политических партий - 70 человек, беспартийные - 40", - рассказал Игорь Карпенко.

"Среди членов политических партий представлены партия "Белая Русь" - 51 (46,4%), КПБ - 7 (6,4%), ЛДПБ - 4 (3,6%), РПТС - 8 (7,3%)", - добавил глава ЦИК.

# Азербайджан и Международная торговая палата обсудили подготовку к COP29

Азербайджан и Международная торговая палата обсудили подготовку к 29-й сессии Конференции сторон Рамочной конвенции ООН об изменении климата (COP29), сообщает во вторник Trend.

Согласно данным министерства экологии и природных ресурсов Азербайджана, состоялась встреча министра Мухтара Бабаева с генеральным секретарем Международной торговой палаты Джоном Дентоном. Отмечается, что в ходе встречи обсуждалась подготовка к COP29, которая в этом году пройдет в Азербайджане, а также стороны обменялись мнениями о дальнейших перспективах сотрудничества.

Напомним, что решение о проведении COP29 в Азербайджане было официально объявлено в Дубае 11 декабря 2023 года. Азербайджан примет мероприятие в ноябре этого года.

# Ровшан Наджаф обсудил с вице-президентом bp снижение эмиссии парниковых газов

Тема снижения эмиссии парниковых газов и решение других экологических вопросов были в центре внимания на встрече 27 февраля президента Госнефтекомпании Азербайджана (SOCAR) Ровшана Наджафа с исполнительным вице-президентом bp по стратегии и устойчивому развитию Джулией Керкиа.

По данным SOCAR, стороны коснулись деятельности SOCAR в экологической сфере, и в частности выполнения поставленных целей по сокращению выбросов (эмиссии парниковых газов и других выбросов) в средне- и долгосрочной перспективе, сокращению факельного сжигания в производственном процессе до нуля, выходу на нулевые выбросы метана и «Net Zero» по диоксиду углерода к 2050 году.

Была отмечена важность реализации меморандума о взаимопонимании, подписанного между SOCAR и bp в области охраны окружающей среды в декабре 2023 года, и рассмотрена работа, проделанная в этом направлении. «На встрече было подчеркнуто, что единогласное решение о проведении COP29 в Азербайджане в 2024 году является показателем высокого доверия международного сообщества к Азербайджану», — говорится в информации SOCAR.

Стороны обменялись мнениями по «энергетическому переходу» от ископаемого топлива к чистому топливу.

# Qarabağ universitetini necə quraq?



***Ölkənin təhsil gündəmini Qarabağ Universitetinin yaradılması və onun perspektivi zəbt edib. Ciddi müzakirələr gedir, hamı öz fikrini və arzularını bildirir. Əsas səbəb cəmiyyətin təhsilə artan marağı deyil, bu universitetin Xankəndidə yaradılmasıdır. Bu, hamının arzusu idi, Xankəndi azad edilsin, orda bayrağımız dalğalansın, orada Azərbaycan dilində tədris aparan universitetimiz açılsın. Nazir də bu ərəfədə öz çıxışında bu universitetin yaradılması barədə fikrini bildirdi.***

Yeni universitetin yardılması üçün etalon olaraq ADA Universitetini və Ali Neft Məktəbini təklif edənlər də oldu. Bu universitetlər gənc universitet olmasına baxmayaraq, ölkədəki digər ATM-lərdən yaxşı mənada fərqlənirlər.

Amma bir məsələni də unutmaq olmaz: ADA Universiteti XİN, BANM isə SOCAR tərəfindən yaradılıb. Müstəqillik illərində TN-in yaratdığı ATM AMİ isə özünü doğrultmadı deyə onu bağlamaq lazım gəldi, hər dəfə bu ATM-nin adı çəkiləndə pis xatirələr yaranır yaddaşlarda. Həqiqətən, onun yaranmasına heç bir ehtiyac yox idi. Bu qərar səhv idi. Xüsusən, bir neçə ayın ərzində, tez-tələsik, heç bir hazırlıq olmadan keyfiyyətli ATM və onun 11 filialının yaradılması mümkün deyildi. Bu da təhsilimizi geri çəkən amillərdən oldu, hərçənd indi heç kim bunu yada salmaq istəmir.

Biz əvvəllər də qeyd etdiyimiz kimi, Qarabağ universuteti sıradan bir universitet olmamalıdır. O, ən azı Qafqazın lider univeritetlərindən biri olmalıdır, biz onu ölkəmizdəki mövcud nümunələr əsasında yox, ölkədə analoqu olmayan bir universitet kimi layihələndirməli və yaratmalıyıq. Bu işdə tələsmək olmaz. Məsələn, ADA Universitetinin yaradılması haqqında fərman 2014-cü ilin yanvarında olsa da, ilk qəbul 30 ay sonra - 2016-cı ilin yayında aparılıb, özü də az sayda ixtisaslar üzrə. Bu müddət ərzində ciddi hazırlıq işləri aparıldı.

Bizim təhsil sahəsində bir çox proseslər heç bir hazırlıq aparılmadan, layihələnmədən, ətraflı müzakirə edilmədən tələsik icra edilir. Təklif edirik ki, Qarabağda heç olmasa Kutaisi Beynəlxalq Universiteti (KBU) səviyyəsində bir univeritet yaradaq. Biz özümüzü Qafqazın lider dövləti saysaq da, elm-təhsil sahəsində bu, belə deyil. KBU 4 il ərzində yaradıldı, 1 milyard avro investisiya qoyuldu. Bizdə 30 ildə 51 ATM-ə toplam olaraq heç bu qədər investisiya qoyulmayıb. Bizim məmurlar hələ də qəbul etmək istəmirlər ki, müasir elm və təhsil böyük investisiya tələb edir, elm və təhsilin inkişafı üçün alim və professora yüksək maaş verilməlidir, ya da digər universitetlərimizin də aqibəti AMİ kimi olacaqdır. “1500 manata mühəndis hazırlamaq olmaz”, bəli, amma 1500 manata universitet müəllimini də işlətmək olmaz, hərçənd reallıqda 2 dəfə az maaşa işləyirlər.

KBU yaradıcıları qeyd edir: ***“KBU-ya 1 milyard avroluq sərmayəmizin miqyası ambisiyalarımızın əhatə dairəsini göstərir. KBU Rusiya, Orta Asiya və Qafqazdan ən yaxşı, ən parlaq məzunlar üçün bir maqnit olmalıdır. Məqsədimiz dünyanın aparıcı regional təlim, texnologiya və innovasiya mərkəzinin yaradılmasıdır”.***

KBU bu gün dünyanın ən yaşlı universitetlərindən biridir.

Bəs, biz bu universitetə ən parlaq məzunları cəlb edə biləcəyikmi? Problemlərdən qaçmaqla, onları etiraf etməməklə, bu problemlər yox olmayacaq. Görəsən, yeni universitetə qəbul balı nə qədər olacaq? 200, yoxsa 300 bal?

Ümumən məktəb təhsili çökən, məktəbi repetitor ümidinə qalan ölkədə güclü universitet yaratmaq olarmı? Çünki güclü universitet ilk növbədə yüksək hazırlıqlı abituriyent olmasını tələb edir.

Biz illər ərzində bu kimi sualları qaldıranda ETN məmurları bu suallara cavab verməkdən, onların birgə həll yollarını axtarmaq əvəzinə, özünü görməzliyə və eşitməzliyə vurdu, bununla da problemlərin silsilə ilə artmasına və qiymətli illərin itirilməsin rəvac verdi.

Ali təhsil sahəsində Qafqazın öncül universiteti olan KBU Amerika və Avropa təhsil standartlarına uyğun şəkildə "beynəlxalq" universitet kimi xüsusi olaraq dizayn edilib. KBU-nun tərəfdaşı Münhen Texniki Universiteti (TUM) QS dünya universitetləri reytinqində Avropanın ən yaxşı universitetlərindən biridir. KBU elm və texnologiyaya diqqət yetirərək, yaşayış yerləri də daxil olmaqla, kampus içərisində bir sıra təhsil xidmətləri təklif edir. Təhsilin məzmunu hazırda Alexander von Humboldt mükafatına layiq görülən 6 professorun çalışdığı və dünyaya 15 Nobel mükafatı laureatı bəxş etmiş Münhen Texniki Universiteti ilə birgə hazırlanıb. KBU hazırda kompüter elmləri, riyaziyyat və idarəetmə sahələrində bakalavr dərəcəsi proqramları təklif edir. Magistr, doktorantura və postdoktorantura proqramlarını dəstəkləmək üçün ən müasir tədqiqat, tibb mərkəzləri və laboratoriyaları var.

Elmi tədqiqat mərkəzləri artıq dünyanın hər yerindən aparıcı alim və investorları cəlb edir. Xərçəng xəstəliklərinin müalicəsi üçün Avropa proton terapiya texnologiyasının aparıcı təchizatçısı olan “Ion Beam Applications of Belgium” şirkəti universitetin tibbi tədqiqat mərkəzində siklotron quraşdırır.

KBU-nun digər üstünlükləri: bura təhsil üçün gözəl məkan kimi qəbul edilib. KBU şəhər kənarındakı yeni ərazidə, regionun bütün əsas ölkələri ilə birləşən beynəlxalq hava limanının yanında ən müasir tikililərə sahibdir. KBU qonşu ölkələrdən istedadlı tələbə kontingentini cəlb edir. Universitetdə mühazirələr Almaniya, Yaponiya, ABŞ və dünyanın digər ölkələrindən olan professorlar tərəfindən aparılır. Universitetdə təhsil ingilis dilindədir.

Biz Xankəndidə belə bir universitet yarada bilərikmi? Bu ATM-in yaradılmasına 1 milyard investisiya qoymağa hazırıqmı? Yoxsa, adi, 52-ci ali təhsil müəssisəsi yaradırıq? Bəlkə, bu ciddi işi QS reytinqinə 20 ildə bir universitet çıxara bilməyən ETN yox, bu siyahıda 75 ATM ilə təmsil edilən türk qardaşlarımıza həvalə edək?..

**Dos. İlham Əhmədov**

# İşğaldan azad edilmiş bütün ərazilərdə təhsil müəssisələrinin uçotu aparılır



İşğaldan azad edilmiş bütün ərazilərdə təhsil müəssisələrin uçotu aparılır. Müxtəlif vəziyyətdə olan məktəb binaları var. Onların hər biri Azərbaycanın təhsil sisteminə uyğunlaşdırılır və bundan sonra istifadəyə verilir.

Bunu jurnalistlərə açıqlamasında elm və təhsil naziri Emin Əmrullayev deyib.

Vaxtilə Xankəndi şəhərində azərbaycandilli məktəblərin də fəaliyyət göstərdiyini deyən nazir əhali oraya köçürüldükdən sonra həmin məktəblərdə tədrisin bərpa olunacağını da diqqətə çatdırıb.

* * *

Nazir Qarabağ Universitetində təhsil alacaq tələbələrə hansı güzəştlərin edilməsi məsələsinə də toxunaraq, deyib: “Yüksək bal toplamış tələbələrə əlavə təqaüdlər olaraq həvəsləndirmə təqaüdləri tətbiq ediləcək. Bütün tələbələr üçün yataqxana pulsuz olacaq”.

* * *

Elm və təhsil naziri Emin Əmrullayev Xocalı məktəbində son tamamlama işlərindən də danışıb.

O deyib: “İnanırıq ki, növbəti tədris ilində Xocalı məktəbi işğaldan azad edilmiş ərazilərdə tədrisə başlayan növbəti təhsil ocaqlarından biri olacaq. Orada nə qədər şagirdin oxuyacağını işlər bitdikdən sonra deyə biləcəyik. İdman, akt zalları və digər infrastruktur da olmaqla təxminən 130-150 nəfərlik şagird üçün nəzərdə tutulur. Əhalinin köçürülməsi tədricən aparılan bir prosesdir. Məktəbdə buraya köçürülən əhalinin, o cümlədən şagirdlərin sayına çatacaq qədər yer olacaq. Eyni zamanda, Kəlbəcər, Zəngilan və digər işğaldan azad edilmiş ərazilərdəki məktəblərdə təmir-tikinti işləri davam edir”.

# Sığorta bazarında artım müşahidə olunur

2024-cü ilin yanvar ayında Azərbaycanda sığorta yığımları 5,5% və ya 7,3 milyon manat artaraq 139,1 milyon manata bərabər olub.

Bu barədə Azərbaycan Mərkəzi Bankı məlumat yayıb.

Ötən ilin yanvar ayında sığorta bazarı üzrə yığımların həcmi 131,8 milyon manat təşkil edib.

Bu dövrdə ümumi sığorta ödənişlərinin həcmi isə 10,3% və ya 3,6 milyon manat artaraq 38,9 milyon manata yüksəlib. 2023-cü ilin yanvar ayında bu rəqəm 35,2 milyon manat olub.



Ötən il sığorta bazarının zərərliyi nisbətən artıb. Belə ki, 2023-cü ilin yanvar ayında sığortaçılar topladıqları hər 100 manatın 26,7 manatını ödənişə yönləndirmişdilərsə, bu ilin ilk ayında bu rəqəm 27,9 manata kimi artıb.

# Azərbaycan İtaliya və Xorvatiyaya neft tədarükü üzrə liderdir

Azərbaycan 2023-cü ildə İtaliya və Xorvatiyaya neft tədarükünə görə birinci yerdə olub.

Avropa İttifaqının Statistika İdarəsinin (Avrostat) məlumatına görə, İtaliya və Xorvatiyanın da daxil olduğu Avropa İttifaqı (Aİ) ölkələri 2023-cü ildə Azərbaycandan son dörd ildə maksimum həcmdə - 20,3 milyon ton neft idxal ediblər. Tədarük edilən neftin ümumi dəyəri 12,4 milyard avro məbləğində qiymətləndirilir.

Aİ ölkələri arasında ötən il Azərbaycandan ən iri neft idxalçılarının onluğuna İtaliya (11,3 milyon ton), Çexiya (2 milyon ton), İspaniya (1,4 milyon ton), Almaniya (1,2 milyon ton), Xorvatiya (1,15 milyon ton), Portuqaliya (631,3 min ton), İrlandiya (617,3 min ton), Yunanıstan (529,6 min ton), Avstriya (498,7 min ton) və Rumıniya (435,5 min ton) daxildir.

İlin yekunlarına görə, Azərbaycan Aİ-nin ən böyük on neft ixracatçısının siyahısında onuncu yeri tutub.

İtaliyanın Ətraf Mühit və Enerji Təhlükəsizliyi Nazirliyinin məlumatına əsasən, ötən il Azərbaycan İtaliyanın ən böyük neft tədarükçüsü olub. Avrostat və İtaliyanın Ətraf Mühit və Enerji Təhlükəsizliyi Nazirliyinin məlumatına görə, ötən il Azərbaycan İtaliyaya neft ixracını 2022-ci illə müqayisədə 25 faiz artırıb. Hesabat dövründə, İtaliya “Azeri Light” markalı neftin idxalını 2022-ci illə müqayisədə 17,8 faiz artıraraq 7,3 milyon tona, “Azeri Brend”in idxalını isə 41,2 faiz artıraraq 4 milyon tona çatdırıb.

2023-cü ildə Azərbaycan Xorvatiyanın da əsas neft ixracatçısı olub. Bu ölkəyə 1,15 milyon ton neft tədarük edərək, bu məhsulun ixracatçıları arasında müvafiq olaraq ikinci və üçüncü yerləri tutan Qazaxıstanı (400 min ton) və Konqonu (117 min ton) geridə qoyub.

Azərbaycan 2023-cü ildə Çexiyaya Rusiyadan sonra ikinci ən böyük neft tədarükçüsüdür.

Çexiya Statistika İdarəsinin verdiyi məlumata görə, ötən il Çexiya Azərbaycandan son dörd ildə maksimum həcmdə neft idxal edib, 2022-ci illə müqayisədə idxal 13,9 faiz artıb.

İlin yekunlarına görə, Azərbaycan Portuqaliya, Macarıstan və Avstriyaya ilk beş ən iri neft ixrac edən ölkələrin siyahısındadır, Yunanıstan və Polşaya neft ixracında isə ilk 10 tədarükçünün onluğuna daxil olub.

# Bakı-Sumqayıt dəmir yolunun infrastrukturu yenidən qurulacaq



“Hazırda Bakı-Sumqayıt dəmir yolu xəttinin infrastrukturunun yenidənqurma planı hazırlanır”.

Bu barədə Xocalı soyqırımına həsr olunan “Ana fəryadı” abidə kompleksinin ziyarəti zamanı “Azərbaycan Dəmir Yolları” (ADY) QSC-nin sədri Rövşən Rüstəmov jurnalistlərə deyib.

***“Bu gün dəmir yolu xətləri, elektrik təchizatı, Bakı dairəvi yolu, yəni Sumqayıt-Bakı yolunun infrastrukturunun kökündən yenidən qurulmasına ehtiyac var. Lazım olan investisiyaların həcmi hesablandıqdan sonra infrastrukturun yaxşılaşdırılmasına başlayacağıq”***, - o deyib.

R.Rüstəmov, həmçinin Sumqayıt-Bakı dəmir yolunda yetərincə böyük sərnişin axınının olduğunu qeyd edib

“2023-cü ilin əvvəlində hər gün 24 min sərnişin daşınırdısa, hazırda bu rəqəm 30 mini ötür”, - deyə o əlavə edib.

# Azərbaycan Orta Dəhlizin inkişafı üçün güclü siyasi iradəyə malikdir

"Bizim Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (TBNM və ya Orta Dəhliz) inkişafını dəstəkləmək və onun potensialından maksimum istifadə etmək üçün qəti niyyətimiz və möhkəm siyasi iradəmiz var".

Bu barədə rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov Dünya Bankı tərəfindən Tbilisidə Orta Dəhliz üzrə tədqiqatın təqdimatında deyib.

***"Bu, təkcə iqtisadi maraqlara deyil, həm də regionda sülhə və çiçəklənməyə xidmət edir. Beynəlxalq təşkilatlara və Dünya Bankının komandasına Orta Dəhlizin potensialının icrasına göstərdikləri yüksək diqqət və dəstəyinə görə minnətdarıq. Yeni ölçülərə malik olan Orta Dəhliz dünya ictimaiyyəti tərəfindən təkcə qısamüddətli həll kimi deyil, həm də ən qısa və səmərəli birləşmə kimi tanınıb. Bizim dəhlizin inkişafını dəstəkləmək, onun etibarlı birləşdirici bənd kimi çıxış edə bilməsi üçün potensialından maksimum istifadə etmək üçün qəti niyyətimiz və siyasi iradəmiz var"***, - o deyib.

R.Hümmətov qeyd edib ki, hazırda Azərbaycan müxtəlif yerli və beynəlxalq nəqliyyat əlaqələrinin inkişafı üzərində çalışır.

***"Bu gün qürur hissi ilə bildirirəm ki, son iki ay ərzində Orta Dəhlizlə Çindən 13 marşrut qatarı göndərilib. Görülən tədbirlər sayəsində bu konteynerlərin Gürcüstan limanına çatdırılma vaxtı artıq cəmi 12 gün çəkir. Bu, mühüm yaxşılaşmadır, belə ki, indiyə qədər çatdırılma vaxtı təqribən 40-50 gün çəkirdi"***, - deyə nazir müavini əlavə edib.

Qeyd edək ki, Orta Dəhliz Çin və Aİ ölkələrininin konteynerlərlə dəmir yolu yük daşımaları şəbəkələrini Mərkəzi Asiya, Qafqaz, Türkiyə və Şərqi Avropa ölkələri vasitəsilə birləşdirir.

Bu dəhlizlə hərəkət edən qatarlar yükləri Çindən Avropaya orta hesabla 20-25 gün ərzində çatdırır və bu, qeyd olunan nəqliyyat dəhlizinin əsas üstünlüklərindən biridir.

# "Şahdəniz-2"-də şərq-şimal cinahından hasilat başlandı

***"Fevralın 13-də "Şahdəniz-2" layihəsi çərçivəsində "Şahdəniz" yatağının şərq-şimal cinahından hasilat başlanıb. Bu ilin əvvəllərinə planlaşdırılmış bu əlamətdar hadisə tam təhlükəsiz şəkildə yerinə yetilirilib".***

Bu barədə bp məlumat yayıb.

Bildirilib ki, bundan əvvəl şərq-şimal cinahında bütün əlaqədar tikinti işləri və istismar sınaqları uğurla başa çatdırılmış və sistem bütövlükdə istismara təhvil verilmişdi:

"Yenicə istismara başlamış şərq-şimal cinahında hazırda 5 quyu, iki hasilat manifoldu, ümumilikdə təqribən 30 km uzunluğu olan iki yeni axın xətti və dünya səviyyəli Şahdəniz qaz və kondensat ehtiyatı layına birləşmiş bir neçə sualtı qurğu var.

Mövcud Şahdəniz qurğularının hasilat gücü hazırda gündə təxminən 79 milyon (ildə təqribən 29 milyard) standart kubmetrdir".

Qeyd edək ki, 2027-ci ilə qədər qərb, cənub-şərq, cənub-qərb və şimal-şərq cinahlarındakı quyular tamamlanaraq mərhələli şəkildə istismara veriləcək. "Şahdəniz-2" (tammiqyaslı işlənmə) 17 dekabr 2013-cü il tarixindən (Bakıda yekun investisiya qərarı imzalandıqdan sonra) həyata keçirilir. Onun dəyəri 28 milyard ABŞ dolları həcmində qiymətləndirilir.

Hazırda "Şahdəniz" yatağından qaz hasilatı Mərhələ 1 çərçivəsində Alfa platformasından (2006-cı ildən) və Mərhələ 2 çərçivəsində Bravo platformasından həyata keçirilir.

# Tullantıların səviyyəsini azaltmaq üçün lazım olan investisiyaların həcmi açıqlanıb



Dünya Bankı Avropa və Mərkəzi Asiya (AMA) regionuna (23 ölkə daxildir) 2060-cı ilədək karbon neytrallığına nail olmaq üçün lazım olan investisiyaların həcmini açıqlayıb.

Dünya Bankı bu barədə "Karbon neytrallığı-2020-ci il: AMA-nın təhlükəsiz və dayanıqlı enerji gələcəyi" adlı sənəddə qeyd edib.

"AMA regionuna 2023-2060-cı illər ərzində "Net Zero" məqsədinə nail olmaq üçün lazımi investisiyaların həcmi 4,7 trilyon dollardır (regional ümumdaxili məhsulun 3,9 faizi)", - deyə Dünya Bankının sənədində qeyd olunub.

Elektrik enerjisinə investisiyalar 934 milyon ABŞ dolları olaraq qiymətləndirilir. Dünya Bankının qiymətləndirmələrinə görə, transsərhəd qaz və elektrik enerjisi ticarətinin artımı, eləcə də sənayenin dekarbonizasiyası üçün 180 milyard dollardan çox vəsait lazımdır.

***"Yaşayış evlərinin modernizasiyası, o cümlədən müasir istilik nasoslarının quraşdırılması üçün 1,2 trilyon ABŞ dollarından çox vəsait tələb olunur"***, - deyə sənəddə qeyd olunub.

Nəqliyyatda enerji keçidi üçün 1,4 trilyon ABŞ dollarından çox vəsait lazımdır.

# *Azərbaycan iqtisadiyyatı, ölkənin xarici iqtisadi əlaqələri dünən, bu gün, sabah*

*"İqtisadiyyat" qəzetinin bu sayından etibarən yeni – "Azərbaycan iqtisadiyyatı, ölkənin xarici iqtisadi əlaqələri dünən, bu gün, sabah" adlı rubrikamızda sizi bu sahədə yeniliklər, aktual məsələlər barədə məlumatlandıracağıq.*



**Budəfəki sual-cavabı**
**Bakı Dövlət Universitetinin dosenti, iqtisad üzrə fəlsəfə doktoru Mehriban Yadulla aparır.**

**Sual:** Malların təqdim edilməsinin, işlər görülməsinin və xidmətlər göstərilməsinin hansı növlərindən idxal zamanı Əlavə Dəyər Vergisi tutulmur?

**Cavab: ƏDV-dən azad etmə Vergi məcəlləsinin 164-cü maddəsində əks olunmuşdur:**

1. milli və ya xarici valyutanın (numizmatika məqsədlərindən başqa), həmçinin qiymətli kağızların göndərilməsi və ya idxal edilməsi;
2. Azərbaycan Respublikasının Mərkəzi Bankının və Azərbaycan Respublikasının Dövlət Neft Fondunun aktivlərində yerləşdirilməsi üçün nəzərdə tutulan qızılın, habelə Azərbaycan Respublikasının Mərkəzi Bankının valyuta sərvətlərinin, xaricdə istehsal edilmiş Azərbaycan Respublikası pul nişanlarının, yubiley sikkələrinin və digər bu qəbildən olan qiymətlilərin idxalı;
3. idxal olunan əmlak istisna olmaqla müəssisənin nizamnamə fonduna (kapitalına) pay şəklində hər hansı əmlakın (əsas vəsaitlər istisna olmaqla) qoyulması (əmlakın pay şəklində qoyuluşu, onun müqabilində bilavasitə digər əmlakın əldə edilməsi ilə əlaqədar olmadıqda);
4. siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən media məhsullarının və kitabların (elektron kitablar istisna olmaqla), habelə dərslik komplektlərinin idxalı və satışı, həmin malların (məhsulların) istehsalı (nəşri) ilə bağlı rulon və ya vərəqə şəklində kağızın idxalı və satışı;
5.media subyektləri (audiovizual media subyektləri istisna olmaqla) tərəfindən istehsal olunan media məhsullarının təqdim edilməsi, habelə Azərbaycan Respublikasında daimi nümayəndəlik yaratmayan qeyri-rezident şəxslər tərəfindən media subyektlərinə (audiovizual media subyektləri istisna olmaqla) media fəaliyyəti ilə bilavasitə bağlı olan işlərin görülməsi və xidmətlərin göstərilməsi – 2023-cü il yanvarın 1-dən 3 il müddətinə;
6. qanunvericiliklə nəzərdə tutulmuş vəzifələrinin yerinə yetirilməsi ilə bağlı Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən mal idxalı, iş görülməsi, xidmət göstərilməsi və Azərbaycan Respublikasının Mərkəzi Bankı üçün xidmətlərin göstərilməsi və işlərin görülməsi, o cümlədən xəzinə avadanlıqlarına texniki servis xidməti, pul nişanlarının istehsalı, daşınması, saxlanılması, sığortalanması, istehsal prosesinin auditinin keçirilməsi, ekspertizası, beynəlxalq qızıl-valyuta ehtiyatlarının saxlanılması və idarə edilməsi ilə əlaqədar xidmətlərin, informasiya sistemləri üzrə dəstəkləmə xidmətlərinin, habelə Azərbaycan Respublikası Mərkəzi Bankının məqsəd və funksiyalarının həyata keçirilməsi ilə əlaqədar məsləhət xidmətlərinin göstərilməsi;
7. **Azərbaycan Respublikasının Dövlət Neft Fondunun qanunvericiliklə nəzərdə tutulmuş vəzifələrinin yerinə yetirilməsi ilə bağlı mal idxalı, iş görülməsi və xidmət göstərilməsi.**
8. Azərbaycan Respublikasına, o cümlədən onu təmsil edən hüquqi şəxslərə neft-qaz ehtiyatlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü, ixrac boru kəmərləri haqqında və bu qəbildən olan digər sazişlərə uyğun olaraq verilməsi nəzərdə tutulan əsas fondların, daşınan əmlakın və digər aktivlərin Azərbaycan Respublikası Dövlət Neft Fonduna və ya Azərbaycan Respublikasını təmsil edən tərəfə hər hansı şəkildə təqdim edilməsi, habelə idxalı üzrə əməliyyatlar.
9. **müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən yaradılan sənaye, yaxud texnologiyalar parklarının infrastrukturunun, istehsal sahələrinin yaradılması və tikintisi, habelə elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin görülməsi məqsədi ilə sənaye, yaxud texnologiyalar parklarının idarəedici təşkilatı və ya operatoru tərəfindən müvafiq icra hakimiyyəti orqanının təsdiqedici sənədi əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı;**
10. müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən yaradılan sənaye və texnologiyalar parkında istehsal sahələrinin tikintisi, elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin görülməsi və istehsal məqsədi ilə sənaye, yaxud texnologiyalar parklarının rezidenti olan hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər tərəfindən müvafiq icra hakimiyyəti orqanının təsdiqedici sənədi əsasında idxal olunan texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı - rezidentin sənaye və texnologiyalar parkında qeydiyyata alındığı tarixdən 10 il müddətinə;
11. müdafiə təyinatlı məmulatların yaradılması və istehsalı fəaliyyətini həyata keçirən şəxslər tərəfindən bu məqsədlə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında texnologiyaların, avadanlıqların, dəstləşdirici hissələrin və xammalın idxalı və həmin şəxslər tərəfindən istehsal edilmiş müdafiə təyinatlı məmulatların satışı;
12. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilmiş təsdiqedici sənəd əsasında müdafiə və dövlət təhlükəsizliyi məqsədləri üçün istifadə olunan bütün növ texnika və texniki vasitələrin, onların ehtiyat hissələrinin, xüsusi proqram təminatlarının və silah-sursatın idxalı və satışı;
13. Azərbaycan Respublikasının ərazisində mövcud qaydada qeydiyyatdan keçmiş humanitar təşkilatlar, həmçinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurumun razılığı ilə digər hüquqi və fiziki şəxslər tərəfindən humanitar yardım kimi gətirilən mallar;
14. texniki yardım da daxil olmaqla, təmənnasız yardım və xeyriyyə məqsədi ilə dövlətlərin, hökumətlərin və beynəlxalq təşkilatların xətti ilə gətirilən mallar;
15. **müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş hallarda və qaydada fiziki şəxs tərəfindən gömrük sərhədindən keçirilən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallar;**
16. ixrac məqsədli neft-qaz fəaliyyəti ilə əlaqədar gətirilən avadanlıq və materiallar (müvafiq icra hakimiyyəti orqanı tərəfindən ixrac məqsədli neft-qaz fəaliyyəti üzrə Azərbaycan Respublikasına idxal olunan avadanlıq və materialların təsdiq olunmuş siyahısı gömrük orqanlarına təqdim edildiyi təqdirdə);
17. xüsusi iqtisadi zonaya idxal edilən mallar (aksizli mallar istisna olmaqla);
18. lizinq müqaviləsinin obyekti olan əsas vəsaitlərin idxalı;
19. investisiya təşviqi sənədini almış hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən müvafiq icra hakimiyyəti orqanının təsdiqedici sənədi əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı – investisiya təşviqi sənədinin alındığı tarixdən 7 il müddətinə;
20. buğdanın idxalı və satışı, buğda ununun və çörəyin istehsalı və satışı - 2017-ci il yanvarın 1-dən 10 il müddətinə;
21. müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən yaradılan sənaye parkında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi fəaliyyətlə məşğul olan sənaye parkının rezidenti tərəfindən müvafiq icra hakimiyyəti orqanının təsdiqedici sənədi əsasında həmin fəaliyyətin məqsədləri üçün bütün növ malların idxalı - 2016-cı il mayın 1-dən 10 il müddətinə;
22. damazlıq heyvanların idxalı və satışı;
23. **toxum və tinglərin idxalı və satışı;**
24. **mineral gübrələrin, pestisidlərin idxalı və satışı;**
25. toxumların yetişdirilməsi, quşçuluq və arıçılıq üçün avadanlıqların, o cümlədən laboratoriya avadanlıqlarının, toxum, taxıl və quru paxlalı bitkilərin təmizlənməsi, çeşidlənməsi və ya kalibrlənməsi üçün maşınların idxalı və satışı;
26. kənd təsərrüfatı heyvanlarının və quşların profilaktikası, diaqnostikası və müalicəsi üçün istifadə olunan baytarlıq preparatlarının idxalı;
27. siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq olunmuş bilavasitə kənd təsərrüfatı təyinatlı suvarma və digər qurğuların, maşınların, avadanlıqların və texnikaların, habelə kənd təsərrüfatı texnikasının ehtiyat hissələrinin istehsalı, idxalı və satışı;
28. siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunan xammalın və materialların idxalı;
29. mülki aviasiya məqsədləri üçün idxal edilən uçuş aparatları, onların ehtiyat hissələri, mühərrikləri və güc qurğuları;
30. **sürücü daxil olmaqla 10 nəfərdən çox adam daşımaq üçün nəzərdə tutulmuş sıxılmış qazla işləyən avtobusların idxalı – 2020-ci il yanvarın 1-dən 5 il müddətinə;**
31. KOB klaster şirkəti tərəfindən mikro, kiçik və orta sahibkarlığın inkişafını dəstəkləyən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında istehsal, yaxud emal məqsədləri üçün texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı – KOB klaster şirkətinin KOB klaster şirkətlərinin reyestrinə daxil edildiyi tarixdən 7 il müddətinə;
32. yalnız elektrik mühərriki ilə işləyən avtomobillərin idxalı və satışı;
33. **istehsal tarixi 3 ildən və mühərrikinin həcmi 2500 kubsantimetrdən çox olmayan hibrid avtomobillərin idxalı və satışı - 2022-ci il yanvarın 1-dən 4 il müddətinə;**
34. elektrik mühərriki ilə işləyən avtomobillər üçün ikinci və üçüncü səviyyə elektrik enerji doldurucularının idxalı və satışı - 2022-ci il yanvarın 1-dən 3 il müddətinə;
35. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında iri neft emalı zavodlarının (xam neft üzrə illik emal gücü 3 milyon tondan az olmayan) yenidən qurulması layihələri çərçivəsində avadanlıqların və materialların idxalı – 2021-ci il yanvarın 1-dən 4 il müddətinə;
36. qızıldan və gümüşdən hazırlanan zərgərlik məmulatlarının istehsalı və emalı işlərinin görülməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında dəzgahların, avadanlıqların və qurğuların idxalı – 2021-ci il yanvarın 1-dən 6 il müddətinə;
37. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin, habelə müharibə və hərbi əməliyyatların təsirinə məruz qalmış digər ərazilərin minalardan və partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan təmizlənməsi çərçivəsində bütün növ texnikanın, avadanlıqların, texniki vasitələrin və qurğuların, onların ehtiyat hissələrinin, fərdi zirehli qoruyucu geyimlərin, alətlərin, minaaxtaran itlərin, partlayıcı və pirotexniki vasitələrin, onların yaradılması və (və ya) istehsalı üçün texnologiyaların, avadanlıqların, dəstləşdirici hissələrin və xammalın, habelə minaaxtaran itlərin idxalı – 2023-cü il martın 1-dən 5 il müddətinə;
38. **siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş əsas vəsaitlərin idxalı;**
39. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) yenidən qurulması layihəsi çərçivəsində avadanlıqların və ehtiyat hissələrinin idxalı – 2023-cü il yanvarın 1-dən 3 il müddətinə;
40. **müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) verdiyi təsdiqedici sənəd əsasında svop əməliyyatları çərçivəsində xam neftin və təbii qazın idxalı -2024-cü il yanvarın 1-dən 3 il müddətinə.**

# 2024-cü ildə dünya ölkələrinin 80%-də qiymətlər enəcək

ABŞ Xəzinədarlığı 2024-cü ildə dünya ölkələrinin 80%-də qiymətlərin enəcəyini gözləyir. Bu barədə ABŞ-ın maliyyə naziri Canet Yellenin "Reuters" agentliyinin yaydığı bəyanatından çıxarışlarda deyilir.



Fevralın 27-də Yellen G20-nin maliyyə nazirləri və mərkəzi bank rəhbərlərinin görüşü ərəfəsində Braziliyanın San-Paulu şəhərində keçirilən mətbuat konfransında Beynəlxalq Valyuta Fondunun (BVF) proqnozlarını qeyd edib. BVF və digər təşkilatların 2023-cü ildə qlobal iqtisadiyyatda geniş miqyaslı yavaşlama ilə bağlı proqnozları reallaşmayıb. Onun sözlərinə görə, bunun əvəzinə iqtisadi artım 3.1% təşkil edib, inflyasiya isə aşağı düşüb.

ABŞ Xəzinədarlığının rəhbəri ABŞ-da inflyasiyanın pik dəyərlərlə müqayisədə əhəmiyyətli dərəcədə azaldığını və əmək bazarının "tarixən güclü olduğunu" söyləyib. *"Əgər ABŞ 2023-cü ildə tənəzzül yaşasaydı, qlobal iqtisadi artım pozulacaqdı. Risklərə baxmayaraq, Amerika iqtisadi artımı davamlı olaraq proqnozları üstələyib"*, - deyə o hesab edir. Maliyyə naziri ABŞ-ın artımının qlobal artımın "əsas drayveri" olduğunu söyləyib.

Bundan əvvəl BVF maliyyə departamentləri və G20 ölkələrinin mərkəzi banklarının rəhbərlərinin Braziliyada keçirilən görüşünə həsr olunmuş hesabatını açıqlayıb və bu hesabatda qlobal iqtisadi artımın və iqtisadi fəallığın orta müddətli perspektivlərinin sabit canlanmaya baxmayaraq, aşağı səviyyədə qaldığı bildirilib.

# Avropa Parlamenti Ukraynaya €50 mlrd. yardım ayrılmasına səs verib

Avropa Parlamenti (AP) Ukraynaya dörd il ərzində 50 milyard avro yardım ayrılmasına səs verib. Avropa Parlamentinin 536 üzvü təşəbbüsün lehinə, 40-ı əleyhinə səs verib, 39-u bitərəf qalıb. Görüş AP-nin saytında yayımlanıb.



Fevralın 1-də Avropa Şurası Ukraynaya 2024-2027-ci illər üçün 50 milyard avro dəyərində büdcə yardımı proqramını təsdiqləyib. Aİ hər il məbləği nəzərdən keçirəcək və təsdiq edəcək, yardım paketinə veto qoyulması ehtimalı aradan qaldıracaq. Macarıstan imtina etdiyinə görə uzun müddət bu yardımla razılaşmaq mümkün olmayıb, lakin sonda "puldan ağlabatan istifadə" zəmanəti aldıqdan sonra qərarı dəstəkləyib.

# Çinin avtomobil ixracı 47,4 faiz artıb

Çindən 2024-cü ilin yanvar ayında 443 min ədəd nəqliyyat vasitələri ixrac edilib ki, bunun da 369 minini minik avtomobili, 74 min ədədini isə kommersiya avtomobilləri təşkil edib.

Bu barədə Çin Avtomobil İstehsalçıları Assosiasiyası məlumat yayıb.

Məlumata görə, ixrac ötən ilin eyni ayı ilə müqayisədə 47,4% artıb. O cümlədən, minik avtomobillərinin ixracı 47,5%, kommersiya nəqliyyat vasitələrinin ixracın isə 46,9% artıb.

Elektrikli nəqliyyat vasitələrinin ixracı 21,7% artaraq 101 minə çatıb.

Ötən il 4,91 milyon avtomobil ixrac edən Çin Yaponiyanı geridə qoyaraq, dünyanın ən böyük avtomobil ixracatçısı olub.



# Qanunsuz miqrasiya ABŞ-da kollapsa səbəb olacaq



"Amerikalı milyarder İlon Maskın fikrincə, ABŞ-a qanunsuz miqrasiyanın davam etməsi ölkədəki bütün sistemlərin çökməsi ilə nəticələnəcək". İlon Mask bu fikri özünün "X" sosial şəbəkə platformasında yazıb.

"Amerikalılar Yer kürəsi əhalisinin 4 faizini təşkil edir. Əlavə 1 faiz insanın bura köçməsi ölkənin bütün əsas xidmətlərinin məhvinə səbəb olacaq. Qanunsuz mühacir axını ölkəni kollapsa sürükləyir", - deyə sahibkar bildirib. Onun sözlərinə görə, ABŞ administrasiyasının miqrasiya siyasəti ölkəni dünyanın müxtəlif yerlərindən ən təhlükəli cinayətkarlar üçün sığınacaq yerinə çevirib.

# Yaponiyada doğum səviyyəsi tarixi minimuma enib



Trend-in məlumatına görə, ötən il ölkədə doğum səviyyəsi tarixi minimuma enib. Belə ki, doğum nisbəti 2022-ci illə müqayisədə 5,1 faiz azalaraq 758 631, nikahların sayı isə 5,9 faiz azalaraq 489 281 olub. Doxsan il ərzində ilk dəfə bu rəqəm 500 mindən aşağı düşüb ki, bu da əhalinin getdikcə daha da azalacağından xəbər verir. Çünki Yaponiyada nikahdankənar doğuşların sayı azdır.


**E L A N**

**A-QROUP sığorta şirkəti yeni ünvanda. 29 yanvar 2024-cü il tarixindən etibarən A-QROUP öz müştərilərini Azadlıq prospekti, 3 ünvanında yerləşən yeni ofisində qarşılayır. Şirkətin əlaqə nömrələri dəyişilməyib: *0909 / (012) 377 09 09.**

**A-QROUP 28 il ərzində onlara güvənən və təkrar bərabərlikdən məmnun olan müştərilərinə təşəkkür edir.**

**"Sizə minnətdar olaraq, sizin üçün inkişaf edirik!" – sizin A-QROUP sığorta şirkətiniz.**


# Mərkəzi Gömrük Hospitalında Uşaq Cərrahiyyəsi şöbəsində uroloji əməliyyatlar müasir protokollara uyğun icra olunur

***Mərkəzi Gömrük Hospitalının Uşaq Cərrahiyyəsi şöbəsinin rəisi, uzman uşaq cərrahı Vüsal Cəfərov və uşaq cərrahı Tural Piriyev tərəfindən 0-18 yaş arası uşaqların boyun, döş qəfəsi, qarın boşluğu və anadangəlmə uroloji qüsurları əməliyyat olunur, endoskopiya, qastroskopiya, ezofaqoskopiya, bronxoskopiya, kolonoskopiya kimi diaqnostik müayinələr, sistoqrafiya, bağırsağın və qida borusunun rentgenoloji müayinələri həyata keçirilir.***

Yenidoğulmuş uşaqlarda qida borusunun atreziyası, onikibarmaq bağırsaq və digər bağırsaq hissələrinin atreziyası, anusun atreziyası, anadangəlmə qarın içi kistaların cərrahi müalicəsi, böyrəklərin anadangəlmə inkişaf qüsurları, sidik kisəsi xəstəlikləri, sidik kanalının anadangəlmə darlıqları, epispadia - sidik kanalının cinsiyyət orqanının üst hissəsində sonlanması, kriptorxizim-xayanın xayalığa tam şəkildə enməməsi, ağciyərlərin anadangəlmə kistik xəstəlikləri, qaraciyər-öd yolları, öd kisəsi, mədəaltı vəz, dalaq və digər xəstəliklər cərrahi üsul ilə sağaldılır.

Qürurvericidir ki, sidik axarının laparoskopik Reflüks əməliyyatı ölkəmizdə ilk dəfə Mərkəzi Gömrük Hospitalının Uşaq Cərrahiyyəsi şöbəsində uğurla həyata keçirilib. Uşaq Cərrahiyyəsi şöbəsində cərrahi problemlərlə yanaşı, uşaqların uroloji və bəzi qastroentoloji xəstəlikləri də şöbənin yüksəkixtisaslı mütəxəssisləri tərəfindən uğurla müalicə olunur.

**Yenidoğulmuş uşaqların cərrahi xəstəlikləri:**

- *Qida borusunun atreziyası;*
- *Onikibarmaq bağırsaq və digər bağırsaq hissələrinin atreziyası;*
- *Anusun atreziyası;*
- *Hirschsprung xəstəliyi;*
- *Qastroşizis;*
- *Onfolosel kimi anadangəlmə inkişaf qüsurlarının aradan qaldırılması;*
- *Yenidoğulmuş uşaqlarda anadangəlmə qarın içi kistaların cərrahi müalicəsi;*
- *Hemangiomalar və Lenfangiomaların əməliyyatsız müalicə edilməsi;*
- *Ağciyərlərin anadangəlmə kistik xəstəlikləri;*
- *Qaraciyər-öd yolları,öd kisəsi, mədaltı vəz,dalağın cərrahi xəstəlikləri.*

*Uşqalarda rast gəlinən uroloji problemlər:*

- *Böyrəklərin anadangəlmə inkişaf qüsurları;*
- *Hidronefroz, sidik axarındaki anadangəlmə darlıqlar;*
- *Sidik kisəsi xəstəlikləri,sidik kanalının anadangəlmə darlıqları;*
- *Hipospadiya xəstəliyi-Sidik kanalının cinsiyyət orqanının alt hissəsində sonlanması;*
- *Epispadia xəstəliyi-Sidik kanalının cinsiyyət orqanının üst hissəsində sonlanması;*
- *Sünnət;*
- *Oğlan uşaqlarinda xarici cinsiyyət üzvünün anomaliyaları;*
- *Uşaqlarda kriptorxizim-xayanın xayalığa tam şəkildə enməməsi.*

**Uşaq cərrahiyyəsi sahəsində müalicə edilən xəstəliklər:**

- *Xroniki qəbizlik;*
- *Anal fistula və apseslər;*
- *Gastroözofagial reflüks xəstəliyi;*
- *Vezikoüretral reflüks xəstəliyinin müalicəsi;*
- *Sidik qaçırmaları;*
- *Nəcis qaçırmaları;*
- *Təkraredən sidik yolları infeksiyalarının müalicəsi.*

*Uşaqlarda təcili vəziyyətlər:*

- *Yad cisim udulması və yad cisim aspirasiyası, yandırıcı maddələrin içilməsi;*
- *Apendisit, İnvaginasiya (bağırsaq keçməzliyi);*
- *Boğulmuş yırtıqlar;*
- *Bağırsaq burulmaları;*
- *Xayanın xayalıqda burulması;*
- *Pnevmotoraks;*
- *Hemotoraks;*
- *Mədə və bağırsaq qanamaları;*

**Uşaqlar üçün endoskopiya xidmətləri:**

*Qastroskopiya ilə mədədən yad cisim çıxarılması, gastroözofagial reflüks xəstəliyində və qastrit-duodenitlərdə diaqnoz qoyulması və qastroskopiya ilə mədədən, onikibarmaq bağırsaqdan biopsiyalar alınması;*

*Özofaqoskopiya ilə qida borusu darlıqlarında balon ilə dilatasiya, portal hipertenziya xəstəliyində qida borusundakı varikozların endoskopik müalicəsi;*

*Bronxoskopiya ilə bronxlardan yad cisim çıxarılması və xroniki ağciyər xəstəliklərinə diaqnoz qoymaq üçün bronxoalveoler maye alınması;*

*Kolonoskopiya ilə polip çıxarılması, rektal qanamalarda kolonoskopiya;*

*Sistoskopiya ilə sidik kanalı, sidik kisəsi və sidik axarlarının xəstəliklərində diaqnoz qoyulması. Vezikoüreteral reflüks xəstəliyində sistoskopiya ilə gel müalicəsi.*

**Dilarə Zamanova, Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**

# Dünyanın ən böyük buz sahəsi əriyir

Antarktidada dəniz buzları ardıcıl üçüncü ildir ki, ən aşağı səviyyəyə enib. Qitə ətrafında üzən buzların sahəsinin 2 milyon kvadrat kilometrdən aşağı düşdüyü müəyyən edilib.



Cənub yarımkürəsində yerləşən və Cənub qütbünü ehtiva edən Antarktika qitəsi qlobal istiləşməyə ən çox məruz qalan ərazidir. Qlobal istiləşmə nəticəsində Antarktidanın buzlaqları əriyir və dəniz səviyyəsini yüksəldir. Yeni araşdırmalara görə, Antarktidada dəniz buzlaqları ardıcıl üçüncü ildir ki, ən aşağı səviyyəyə düşüb və bu da "ani kritik keçid"ə işarə edir. Antarktidada dəniz buzunun peyklə ölçülməsinə 1979-cu ildə başlanılıb. Ərimə həddi 2022-ci ilə qədər nəzərəçarpacaq dərəcədə pozulmamışdı. Lakin son 3 ildə bu həddi keçib və buz kütləsi ən aşağı səviyyəyə enib. ABŞ Milli Qar və Buz Məlumat Mərkəzinin yeni məlumatları təsdiqləyir ki, son üç il qitə ətrafında üzən dəniz buzunun ərimə miqdarı ən aşağı göstərici və rekord həddədir. Qeyd edək ki, Antarktidanın dəniz buzları hər fevral ayında qitənin yay mövsümü səbəbindən əriyirdi, lakin bu qədər ərimə müşahidə olunmamışdı.




**Azəri Light və Brent markalı neftin bir barelinin 22 – 28 fevral tarixlərində satış qiyməti, ABŞ dolları ilə (ICE birjası)**

**İqtisadçı ekspert: Maqsud Quliyev**

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Bəyalı Ataşov, Zahid Məmmədov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500